Litva

# QƏBUL ZAMANI HÜQUQ VƏ VƏZİFƏLƏRİN



**Bu məlumat sənin üçündür, əgər:**

- yaşın 18-dən azdırsa
- valideynlərin olmadan, yəni tək və ya digər ailə üzvlərinlə gəlmisənsə
- Litvada sığınacaq (həmçinin beynəlxalq himayə adlanır) üçün müraciət etmisənsə.

Qeydiyyat üçün versiya

AZERBAIJANI

# MÜNDƏRİCAT


Bu ölkədə özünü təhlükəsiz hiss edə bilərsən 3

Sənə kim kömək edəcək? 3

Nümayəndənin vəzifəsi nədən ibarətdir? 3

Sənə başqa kim kömək edə bilər? 4

Nə əldə edəcəksən? 6

Tibbi xidmətlər almaq hüququ 8

Əməkdaşlara və nümayəndəyə məlumat ver 9

Ən yaxşı maraqların qiymətləndirilməsi nədir? 10

Təhsil almaq hüququ 10

Əmək hüququ 11

Sığınacaq axtaran şəxs olaraq sənədin 11

Harada qalacaqsan? 12

Kimsə səninlə pis rəftar edirsə, nə edə bilərsən? 13

Qəbul üzrə hansı vəzifələrin var? 14

Öz vəzifələrini yerinə yetirmədiyin halda nə baş verir? 15

Sığınacaq üçün müraciət və digər ölkələrə səfər üzrə qaydalar 16

Aİ+ ölkələrindən birinə qaçdığın halda nələr baş verəcək? 17

Səlahiyyətli orqanların verdiyi qərarla razı olmadığın halda sənə kim kömək edə bilər? 18

Dəstəklə bağlı hər hansı dəyişiklik olsa nə baş verəcək? 19

Əlaqə məlumatları 20

## BU ÖLKƏDƏ ÖZÜNÜ TƏHLÜKƏSİZ HİSS EDƏ BİLƏRSƏN

Sən səlahiyyətli orqanlara təhlükədə olduğun üçün ölkənə qayıda bilməyəcəyini bildirdin və sığınacaq üçün müraciət etdin. Sən Litvada sığınacaq axtaran şəxssən.

Hər şeyin sənə qəribə gəldiyi normaldır. Bu ölkədə sən təhlükədə deyilsən və təkbaşına qalmayacaqsan.

## SƏNƏ KİM KÖMƏK EDƏCƏK?

Avropada yaşı 18-dən az olan hər kəs uşaq hesab edilir, buna görə də onun **xüsusi dəstək** almaq hüququ var.



Burada valideynlərin yanında olmadığına görə, **nümayəndə** adlanan başqa bir yetkin şəxs sənə ehtiyaclarını qarşılamağa kömək edəcək. Bu şəxs səlahiyyətli orqanlardan asılı deyil.

Əgər sən nümayəndəni hələ tanımırsansa, tezliklə onunla tanış olacaqsan.

O vaxta qədər səni dəstəkləmək və təmsil etmək üçün səlahiyyətli orqanlar başqa bir yetkin şəxsi təyin edə bilərlər.

## NÜMAYƏNDƏNİN VƏZİFƏSİ NƏDƏN İBARƏTDİR?

Sənin nümayəndən ölkədə qaldığın müddətcə bilməli olduğun hər şeyi izah edir və suallarına cavab tapmağına kömək edir. Məsələn, məktəbə necə gedə bilərsən, həkimə necə müraciət etmək lazımdır, harada yaşayacaqsan, qohumlarını necə tapmaq və ya onlarla necə əlaqə saxlamaq olar. Bu suallarla bağlı sənə digər əməkdaşlar da kömək edəcəklər.

Nümayəndən nəyə ehtiyacın olduğunu səlahiyyətli orqanlara bildirir, sənə məsləhətlər verir və vacib qərarlar qəbul etməkdə sənə kömək edir.

Sən hər zaman ehtiyaclarını və hisslərini ifadə edə,  nümayəndənlə fikirlərini bölüşə bilərsən.

Nümayəndənlə hər hansı bir problem yaşayırsansa, bu barədə əməkdaşlara məlumat ver.

## SƏNƏ BAŞQA KİM KÖMƏK EDƏ BİLƏR?



- **Sosial işçi** sənə gündəlik ehtiyaclarını qarşılamağa və ya müəyyən bir məsələdə sənə yardım göstərə biləcək digər mütəxəssislərlə əlaqə yaratmağa kömək edəcək.
- **Həkim** və ya **tibb bacısı** sənə özünü pis hiss etdiyin halda, yaralandıqda və ya hər hansı bir tibbi yardıma ehtiyacın olduqda kömək edəcəklər.
- **Psixoloq** sənə özünü kədərli, qəzəbli, qorxmuş, narahat hiss etdiyin halda və ya yaxşı yata bilmədikdə kömək edəcək.
- **Hüquq məsləhətçisi** sığınacaq verilməsi prosesi zamanı, eləcə də hüquqlarına hörmət edilmədiyini düşündüyün hallarda nə baş verdiyini anlamağına kömək edəcək.
- **Tərcüməçi** anladığın dildə ünsiyyət qurmağına kömək edə bilər. Onun vəzifəsi sənin və başqalarının dediklərini dəqiq tərcümə etməkdir.

## Yaşın qiymətləndirilməsi nədir?




Avropaya gəldiyin zaman yanında yaşını təsdiq edən bir sənəd yoxdursa və səlahiyyətli orqanların yaşınla bağlı şübhələri varsa, səndən **yaşın qiymətləndirilməsi** adlanan bir prosesdə iştirak etməyini istəyəcəklər. Beləliklə, onlar sənin uşaq olub-olmadığına qərar verə bilərlər.
Səndən yaşın qiymətləndirilməsində iştirak etmək istənildiyi halda nümayəndən sənə prosesi izah edəcək.

## Ailənlə əlaqə saxlamaq istəyirsənsə nə edə bilərsən?



- Ailənin harada olduğunu bilmirsənsə və ya onunla əlaqəni itirmisənsə, yardım üçün nümayəndənə və ya əməkdaşlara müraciət edə bilərsən. Onlar ailəni axtarmağına kömək edəcəklər.
- Ailənin harada olduğunu bilirsənsə və onun əlaqə məlumatları səndə varsa, istəyinə görə əməkdaşlar ailənlə əlaqə saxlamağına kömək edə bilərlər.
- Avropada ailən varsa, əməkdaşlara ailən haqqında bildiyin hər şeyi danış.

## Ehtiyatlı ol, bəzi insanlar səni təhlükəyə ata bilərlər



Bu ölkəni tərk etməyi düşünə bilərsən, və ya bəzi insanlar ölkədən qaçmaq üçün səni inandırmağa çalışacaqlar. Bu sənin üçün təhlükə yarada və sığınacaq üçün ərizənə mənfi təsir göstərə bilər.
Nümayəndənlə və əməkdaşlarla danış, onlara vəziyyəti izah et ki, sənə məsləhət verə bilsinlər.

# NƏ ƏLDƏ EDƏCƏKSƏN?

Sığınacaq üçün ərizənin səlahiyyətli orqanlar tərəfindən nəzərdən keçirilməsini gözləyərkən sən müxtəlif növ dəstək və xidmətlər əldə edəcəksən. Buna **qəbul** deyilir.

Bir uşaq və sığınacaq axtaran şəxs kimi sənin yalnız hüquqların deyil, həm də əməl etməli olduğun vəzifələrin var. Onlar bu kitabçada izah edilir.

Əməkdaşlar bu kitabçada olan məlumatla tanış olduğunu təsdiqləməyini xahiş edəcəklər. Kitabçada olan məlumatın hər hansı bir hissəsini başa düşmədinsə və ya əlavə sualların varsa, nümayəndədən və əməkdaşlardan soruş.

Bu ölkədə qaldığın müddətdə nümayəndən və əməkdaşlar hər hansı xüsusi vəziyyətindən asılı olaraq sənə əlavə məlumat verəcəklər. Sən istənilən vaxt suallar verə bilərsən.



**Sən aşağıdakıları əldə edəcəksən**:



- yatmaq üçün yer



- yemək və ya yemək almaq üçün pul



- şəxsi gigiyena vasitələri



- geyim



- gündəlik xərclər üçün pul

# TİBBİ XİDMƏTLƏR ALMAQ HÜQUQU

**Səlahiyyətli orqanlar sənin zəruri tibbi yardım almanı təmin edəcəklər.**

**Sən yaşadığın hər hansı bir sağlamlıq problemi haqqında əməkdaşlara və nümayəndənə məlumat verə bilərsən.** Lazım gələrsə, onlar tibb bacısına və ya həkimə müraciət etməyinə kömək edəcəklər.



Həkim bunu zəruri hesab edərsə, dərmanlar təyin edəcək və mütəxəssisə görünməyini məsləhət görəcək.

Tibb bacısı və ya həkim tərəfindən müayinədən keçməli olacaqsansa, əməkdaşlar və nümayəndən sənə bu barədə məlumat verəcəklər. Onlar sənin sağlamlığınla maraqlana bilər və sənə lazım olan yardımı göstərəcəklər.

Təcili tibbi yardıma ehtiyacın və ya təcili müalicə tələb edən hər hansı bir yaran varsa, əməkdaşlara bu barədə məlumat ver. Qaldığın yerdən kənardasansa, 112 təcili yardım nömrəsinə pulsuz zəng edə bilərsən.

## ƏMƏKDAŞLARI VƏ NÜMAYƏNDƏNİ BU HALLARDA MƏLUMATLANDIR:






- özünü yaxşı hiss etmirsən, yaralanmısan, yaxud təcili tibbi yardıma və ya dərmana ehtiyacın var
- narkotik və ya spirtli içki qəbul edirsən
- keçmişdə zorakılığa və ya istismara məruz qalmısan və ya hazırda bununla qarşılaşırsan
- hamiləsən və ya hamilə ola bilərsən
- özün yeriyə bilmirsən və ya eşitmə və görmə problemin var
- çox narahatsan, kədərlisən, yata bilmirsən və ya mənfi düşüncələrin var
- özünü təhlükədə hiss edirsən, yaxud yad adamdan və ya tanıdığın birindən qorxursan
- səni istəmədiyin şeyləri etməyə məcbur ediblər və ya indi məcbur edirlər
- inancına, sevdiyin insana, geyim və ya davranış tərzinə görə özünü təhlükədə hiss edirsən

Unutma, əməkdaşlar və nümayəndən sənə hər zaman kömək etməyə hazırdırlar.



## ƏN YAXŞI MARAQLARIN QİYMƏTLƏNDİRİLMƏSİ NƏDİR?



Bu fəaliyyət zamanı sən başqa əməkdaşları görəcəksən və onlar sənə aşağıdakı məqsədlərlə suallar verəcəklər:

- sənin **ehtiyaclarını** anlamaq üçün
- hansı **dəstəyə** ehtiyacın olduğunu müəyyən etmək üçün

Bu, səlahiyyətli orqanlara vacib qərarlar qəbul etməyə kömək edəcək, məsələn, harada qalacağınla bağlı.

Sən tibb bacısına, həkimə, əməkdaşlara və nümayəndənə etibar edə bilərsən. Sən onlarla hər şeyi paylaşa bilərsən. Sənin razılığın olmadan dediklərinin heç biri nümayəndəndən başqa heç kimlə paylaşılmayacaq. Yeganə istisna, sənin və ya başqasının həyatının təhlükədə olması və ya qanunun tələb etdiyi hallardır.

Əgər nümayəndənin məlumatlandırılmasını və ya cəlb olunmasını istəmirsənsə, bunu əməkdaşlara bildir. Onlar sorğunu araşdıracaq və sənin üçün nəyin daha yaxşı olduğuna əsasən qərar verəcəklər.

## TƏHSİL ALMAQ HÜQUQU



Bir uşaq olaraq sənin təhsil almaq və oxumaq hüququn var. Əgər məktəbdə oxuyursansa və bu müddət ərzində 18 yaşın tamam olursa, məzun olana qədər təhsilini davam etdirə bilərsən.

Nümayəndən və əməkdaşlar yerli məktəbdə qeydiyyatdan keçməyinə kömək edəcəklər. Onlar dil üzrə hazırlıq kursları və digər proqramlar barədə sənə məlumat verəcəklər. Bu proqramlardan bəzilərində iştirak etməli ola bilərsən.

Əməkdaşlar sənə öyrənməyə, inkişaf etməyə və yeni dostlar qazanmağa kömək edəcək təhsil və istirahət fəaliyyətləri haqqında məlumat verəcəklər.

## ƏMƏK HÜQUQU

Yaşından və vəziyyətindən asılı olaraq, istəyinə görə sənin Litvada işləməyinə icazə verilə bilər. Nümayəndən və əməkdaşlar sənə əlavə məlumat verəcəklər.





Sığınacaq müraciətinizlə bağlı altı ay ərzində heç bir qərar verilməzsə və bu gecikmə sizin təqsiriniz ucbatından baş verməzsə, Litvada işləyə bilərsən.



14 yaşdan kiçik olan bütün oğlan və qızlara işləməyə icazə verilmir.

## SIĞINACAQ AXTARAN ŞƏXS OLARAQ SƏNƏDİN

Sən üzərində adın və şəklin olan şəxsi sənəd alacaqsan. Bu, Litvada sığınacaq axtaran şəxs olduğunu göstərir. Sənəd hər zaman üstündə olmalıdır.



**Bu, çox vacib sənəddir. Onu itirməməyə səy göstərməli və başqasına verməməlisən.**

Bu sənəd  Əcnəbinin qeydiyyat şəhadətnaməsi adlanır.

# HARADA QALACAQSAN?

Səlahiyyətli orqanlar sığınacaq üçün ərizəni nəzərdən keçirdikləri müddət ərzində qalacağın yer yaşından və ehtiyaclarından asılıdır.







Sənin nümayəndən və əməkdaşlar **sənə harada qalmalı olduğunu** bildirəcəklər.

**Sən yalnız səlahiyyətli orqanların qərar verdiyi yerdə dəstək və xidmətlər alacaqsan.**

Çox nadir hallarda uşaqlar istədikləri kimi girib-çıxa bilməyəcəkləri bir mərkəzə yerləşdirilə bilərlər. Bu vəziyyətdə olduğun halda nümayəndən, hüquq məsləhətçisi və əməkdaşlar sənə yardım edəcəklər.

**Harada qaldığından asılı olmayaraq, özünü təhlükəsiz hiss etmək hüququn var. Heç kimə icazə verilmir:**



səni təhdid etməyə



səni təhqir etməyə



sənə zərər verməyə

Fərq etməz, bu kimdir: yad adam, ya tanıdığın biri.
Əməkdaşlarla və ya nümayəndənlə bağlı hər hansı bir problemin varsa, bu barədə açıq danışa bilərsən.

## KİMSƏ SƏNİNLƏ PİS RƏFTAR EDİRSƏ, NƏ EDƏ BİLƏRSƏN?



Etibar etdiyin birinə, başqa bir əməkdaşa, nümayəndənə və ya Dövlət Uşaq Hüquqlarının Müdafiəsi və Övladlığa Götürmə Xidmətinə deyə bilərsən.



Əgər kimsə səninlə pis rəfrar edirsə, belə halların təkrarlanmaması üçün siz bu barədə Qəbul və İnteqrasiya Agentliyinə məlumat verə bilərsiniz. Buna "şikayət vermək" deyilir.

**Diqqət!**

Qaldığın yerdən kənardasan və təhlükədəsənsə, istənilən telefondan 112 milli təcili yardım nömrəsinə pulsuz zəng edə bilərsən.

## QƏBUL ÜZRƏ HANSI VƏZİFƏLƏRİN VAR?



Hekayəni danışmaq bəzən qorxulu və çətin olsa belə, həqiqəti söyləmək və səlahiyyətli orqanlarla əməkdaşlıq etmək çox vacibdir. Sən tək deyilsən. Nümayəndən və əməkdaşlar hər zaman səni dinləməyə və gündəlik ehtiyaclarınla bağlı sənə kömək etməyə hazırdırlar.
Əməkdaşlar vəziyyətindən xəbərdar olsalar, sənə kömək edə bilərlər.

Harada qalacağından asılı olmayaraq, riayət etməli olduğun qaydalar olacaq. Misal üçün, digər sakinlərə və əməkdaşlara hörmət etməlisən və istirahət saatlarında səs-küy salmamalısan.

Əməkdaşlar sənə qaydaları və onlara riayət etməməyin nəticələrini izah edəcəklər.

Sənin üçün bunlar çox vacibdir:

✔ Qaldığın yerin qaydalarına əməl etmək
- Məkanı təmiz saxlamaq
- Dava etməmək
- Heç vaxt alkoqol və ya narkotik vasitələrdən istifadə etməmək

✖ səlahiyyətli orqanların göstərişinə əsasən qaldığın yerdən qaçmamaq

✔ əməkdaşlar və nümayəndən tərəfindən sənə izah ediləcək bu ölkənin qanunlarına əməl etmək.

## ÖZ VƏZİFƏLƏRİNİ YERİNƏ YETİRMƏDİYİN HALDA NƏ BAŞ VERİR?



Belə bir hal baş verərsə, nümayəndənlə və ya Qəbul və İnteqrasiya Agentliyinin əməkdaşlarıyla açıq danışaraq, vəziyyətini və səbəblərini izah edə bilərsən.

Səlahiyyətli orqanlar vəziyyətini qiymətləndirəcək və hər hansı bir tədbir görməyə qərara gəlsələr, sənə və nümayəndənə bu barədə məlumat verəcəklər.

Səlahiyyətli orqanlar qərar verə bilərlər ki:

- **daha az dəstək ala bilərsən**, məsələn, səlahiyyətli orqanların göstərişinə əsasən qaldığın yerdən qaçdığın və ya səlahiyyətli orqanlarla əməkdaşlıq etmədiyin halda.
- **aldığın dəstəyin bir hissəsini itirə bilərsən**, məsələn, aqressiv davrandığın və ya qaldığın yerin qaydalarını dəfələrlə və ya ciddi şəkildə pozduğun halda. Polisə də müraciət edilə bilər.



**Hazırda sən Litvadasan bu, Aİ+ ölkələrindən biridir.**
**Aİ+ ölkələrinə daxildir:**

Avropa İttifaqına (Aİ) üzv olan 27 dövlət: Almaniya, Avstriya, Belçika, Bolqarıstan, Çex Respublikası, Danimarka, Estoniya, Finlandiya, Fransa, Hollandiya, Xorvatiya, İrlandiya Respublikası, İspaniya, İsveç, İtaliya, Kipr, Latviya, Litva, Lüksemburq, Macarıstan, Malta, Polşa, Portuqaliya, Rumıniya, Slovakiya, Sloveniya, Yunanıstan və

digər 4 ölkə: İslandiya, İsveçrə, Lixtenşteyn və Norveç.

## SIĞINACAQ ÜÇÜN MÜRACİƏT VƏ Aİ+ ÖLKƏLƏRİNƏ SƏFƏR ÜZRƏ QAYDALAR



Sənin nümayəndən **və əməkdaşlar bu vacib qaydaları sənə izah edəcəklər. Sən istədiyin zaman onlara sual verə bilərsən.**

- ✔ Sən Litvada qalmalısan və digər Aİ+ ölkələrindən birinə qaçmamalısan.
- ✔ Bu ölkələrdən birində qohumların varsa, səlahiyyətli orqanlar ailənin yenidən birləşməsi hüquqların haqqında sənə məlumat verəcəklər. Ancaq qaçmaq lazım deyil.
- ✖ Əgər qaçsan, bu, kitabçada təsvir olunan mənfi nəticələrə səbəb olacaq. Məsələn, digər ölkədə qəbul üzrə daha az dəstək alacaqsan.
- ✔ Unutma ki, səlahiyyətli orqanlar sənə fərqli məlumat vermədikləri təqdirdə, sığınacaq üçün ərizəni ilk gəldiyin Aİ+ ölkəsində qeydiyyatdan keçirməlisən.
- ✔ Bu ölkələrdən yalnız biri sığınacaq üçün ərizəni nəzərdən keçirməkdən məsuldur. Litvanın səlahiyyətli orqanları buna görə hansı ölkənin məsuliyyət daşıdığını sənə bildirəcəklər.

Bu proseslər barədə məlumatı ayrı kitabçalardan alacaqsan.

# Aİ+ ÖLKƏLƏRİNDƏN BİRİNƏ QAÇDIĞIN HALDA NƏLƏR BAŞ VERƏCƏK?




**Litvada:**

- sığınacaq verilməsi prosesin dayandırıla bilər.

**Digər Aİ+ ölkəsində:**

- səlahiyyətli orqanlar səni tərk etdiyin Aİ+ ölkəsinə geri göndərməyə qərar verə bilərlər.

Səlahiyyətli orqanlar səni geri göndərmək qərarı barədə sənə məlumat verdikləri andan etibarən sən müəyyən hüquqlardan məhrum qalacaqsan, məsələn:

- bəzi dəstək növlərini almayacaqsan və
- işləməyinə icazə verilməyəcək.

## SƏLAHİYYƏTLİ ORQANLARIN VERDİYİ QƏRARLA RAZI OLMADIĞIN HALDA SƏNƏ KİM KÖMƏK EDƏ BİLƏR?

Sən nümayəndənlə danışa və istədiyin sualı verə bilərsən.

Sən ümayəndənlə birlikdə hüquq məsləhətçisindən kömək istəyə bilərsən.

Hüquq məsləhətçisi, bu ölkənin qaydalarını yaxşı bilən və vəziyyətini araşdırıb sənə yardım edə bilən bir şəxsdir.



Əməkdaşlar həmçinin səni məlumat və yardımla təmin edə biləcək qeyri-hökumət təşkilatları haqqında da məlumat verəcəklər.




Sən istənilən vaxt BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı (UNHCR) ilə əlaqə saxlaya bilərsən. UNHCR öz ölkəsini tərk etmək məcburiyyətində qalan insanları qoruyur.

## DƏSTƏKLƏ BAĞLI HƏR HANSI DƏYİŞİKLİK OLSA NƏ BAŞ VERƏCƏK?

Səlahiyyətli orqanlar Qəbul və İnteqrasiya Agentliyi səhifədə təsvir edilən vəziyyətlə əlaqədar olaraq müəyyən dəstək növlərini məhdudlaşdırmaq və ya ləğv etmək qərarına gəlsələr, sənin yenə də aşağıdakılara hüququn olacaq:



- məktəbə getməyə



- həkimə və ya tibb bacısına müraciət etməyə və tibbi yardım almağa



- Şəxsi vəziyyətinə və ehtiyaclarına uyğun yardım almağa, məsələn, səlahiyyətli orqanların qərar verdiyi yerdə gecələmək üçün yer, eləcə də müəyyən dəstək almağa (məsələn yemək).

Səlahiyyətli orqanlar qaçdığına və başqa bir Aİ+ ölkəsinə köçdüyünə görə sənə verilən qəbul dəstəyini ləğv etmək qərarına gəldikdə, almağa davam edəcəyin dəstək növü şəxsi vəziyyətindən və ehtiyaclarından asılı olacaq. Sən məktəbə getməyə davam edə biləcəksən.

# ƏLAQƏ MƏLUMATLARI

Hər hansı bir sualın və ya qaldığın müddətdə dəstəyə ehtiyacın varsa, qeyd olunan orqanlarda işləyən əməkdaşlarla əlaqə saxlaya bilərsən:

| qəbul üzrə səlahiyyətli orqan | |
|---|---|
| Reception and Integration Agency | Qəbul və İnteqrasiya Agentliyi |

| digər müvafiq səlahiyyətli orqan | |
|---|---|
| Miqrasiya İdarəsi | info@migracija.gov.lt +370 707 67000 |

| digər müvafiq səlahiyyətli orqan | |
|---|---|
| Dövlət Sərhəd Mühafizə Xidməti | dvks@vsat.vrm.lt +370 707 59305 |

Həmçinin aşağıdakı məsələlərlə bağlı qeyd olunan təşkilatlara müraciət edə bilərsən:

## tibbi dəstək



Qəbul və İnteqrasiya Agentliyi

🖂 info@piia.lt 📞 +370 602 49364

və ya Agentlik daxilindəki ixtisaslaşmış heyətə müraciət etmək

## psixososial dəstək



Uşaqlar və yeniyetmələr üçün anonim emosional dəstək:

📞 116 111 (saat 11.00-dan 00.00-dək)

www.vaikulinija.lt

Vilnüs Arxiyepiskopluğunun "Caritas" təşkilatı:

🖂 kulturunamai@vilnius.caritas.lt

📞 +370 673 48052

Qəbul və İnteqrasiya Agentliyi

🖂 info@piia.lt 📞 +370 602 49364

və ya Agentlik daxilindəki ixtisaslaşmış heyətə müraciət etmək

## uşaqların müdafiəsi



Dövlət Uşaq Hüquqlarının Müdafiəsi və Övladlığagötürmə Xidməti

🖂 info@vaikoteises.lt 📞 0 800 10 800

Əgər özünü unudulmuş hiss edirsən və ya təhlükədəsənsə, bazar ertəsi–şənbə günləri saat 8.00-dan 20.00-dək 📞 0 800 10 800 nömrəsinə zəng edə bilərsən.

İş saatlarından kənar, qeyri-iş günləri və ya rəsmi bayram günlərində uşaq hüquqlarının pozulması şübhəsini bildirmək üçün, xahiş olunur 112 təcili yardım nömrəsi vasitəsilə Fövqəladə Hallar Xidməti ilə əlaqə saxla.

Uşaqlar və yeniyetmələr üçün anonim emosional dəstək:

📞 116 111 (saat 11.00-dan 00.00-dək)

## təhlükədə olan uşaqlar üçün dəstək xətti



Əgər özünü unudulmuş hiss edirsən və ya təhlükədəsənsə, bazar ertəsi–şənbə günləri saat 8.00-dan 20.00-dək 0 800 10 800 nömrəsinə zəng edə bilərsən.

İş saatlarından kənar, qeyri-iş günləri və ya rəsmi bayram günlərində uşaq hüquqlarının pozulması şübhəsini bildirmək üçün, xahiş olunur **112** təcili yardım nömrəsi vasitəsilə Fövqəladə Hallar Xidməti ilə əlaqə saxla.

Uşaqlar və yeniyetmələr üçün anonim emosional dəstək: 116 111 (saat 11.00-dan 00.00-dək)

## hüquqi məsləhət, yardım və təmsilçilik



Dövlət tərəfindən təminat verilən hüquqi yardım: teisines.paslaugos@piia.lt +370 602 49364

Litva Qırmızı Xaç Cəmiyyəti: hüquqi məsləhət legal@redcross.lt; ailə üzvlərinin və qohumların axtarılması və əlaqələndirilməsi

tracing@redcross.lt

## BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı (UNHCR)

sığınacaq axtaran şəxslərin və qaçqınların maraq və hüquqlarını qoruyur




Litvadakı BMT QAK haqqında – BMT QAK Litva

BMT QAK-ın Şimal və Baltik Ölkələri üzrə Nümayəndəliyi (Stokholm, İsveç): +46 10 10 12 800 (Bazar ertəsi – Cümə, Stokholm vaxtı ilə saat 10.00-12.00)

BMT QAK-ın Əlaqələndirmə Ofisi (Vilnüs, Litva): +370 5210 7416 (Bazar ertəsindən Cümə gününədək, Vilnüs vaxtı ilə saat 9.00-17.00)

swestprotection@unhcr.org

| | |
|---|---|
| Litva Qırmızı Xaç Cəmiyyəti: monitorinq | 🖂 stebesena@redcross.lt 📞 +370 682 16597 |
| Beynəlxalq Miqrasiya Təşkilatının (IOM) Vilnüs Ofisi | Könüllü qayıdışa kömək və reinteqrasiya dəstəyi 📞 +370 8001 2342, 🖂 iomvilnius@iom.int |

Təcili tibbi yardıma ehtiyacın varsa və təhlükədəsənsə, əməkdaşlarla əlaqə saxla. Onlar sənə kömək edəcəklər.

Qaldığın yerdən kənardasan və qəza keçirmisən və ya təhlükədəsənsə, bu təcili yardım nömrəsinə pulsuz zəng edə bilərsən:

**təcili tibbi yardım: 112**

**polis: 112**

Bu kitabça yalnız məlumatlandırma məqsədləri üçün nəzərdə tutulub. O özü heç bir hüquq və ya öhdəlik yaratmır. Bu materialın əsas hissəsini Avropa İttifaqının Sığınacaq Agentliyi (EUAA) təqdim edib, və bu kitabçanın surətinin çıxarılmasına və dəyişdirilməsinə EUAA tərəfindən yalnız Aİ-nin üzvü olan dövlətlərə icazə verilir. Aİ-nin üzvü olan dövlətlər və ya digər səlahiyyətli üçüncü şəxslər tərəfindən bu kitabçaya daxil edilən məlumatların dəqiqliyi, məzmunu, tamlığı, qanuniliyi və ya etibarlılığına görə EUAA heç bir məsuliyyət və ya cavabdehlik daşımır. Bu kitabçada mövcud olan məlumatlardan istifadəyə görə nə EUAA, nə də EUAA adından hərəkət edən hər hansı bir şəxs məsuliyyət daşımır.

© European Union Agency for Asylum, 2025